# Ortaq tarix və mədəniyyət türk xalqlarını birləşdirən ən güclü amillərdən biridir

*1995-ci il avqustun 28-də Qırğızıstanın paytaxtı Bişkekdə Türkdilli Ölkələrin Dövlət Başçılarının III Zirvə görüşü keçirilib. Zirvə toplantısında Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Türkmənistan Prezidenti Saparmurad Niyazov, Özbəkistan Prezidenti İslam Kərimov və Qırğızıstan Prezidenti Əsgər Akayev iştirak ediblər.*

1992-ci ildən başlayaraq təşkil edilən Zirvə görüşlərində türk dünyasının ümumi problemləri müzakirə olunur və ortaq tarixə, soya, mədəniyyətə malik olan ölkələrin liderləri arasında qarşılıqlı münasibətlərin inkişafı məqsədilə görüşlər keçirilir. Bu sammitlər müstəqil türk dövlətləri arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün mühüm platforma rolunu oynayır.

Xalqlarımızı birləşdirən ortaq tarix və mədəniyyət, uzun əsrlər boyu davam edən dostluq və qarşılıqlı əlaqələrdir. Müstəqillik qazandıqdan sonra türk dövlətləri arasında bütün sahələrdə əməkdaşlıq uğurla davam etdirilir və bu dövlətlər beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyirlər.

Ulu öndər Heydər Əliyev 1995-ci ilin avqustunda Türkdilli Ölkələrin Dövlət Başçılarının III Zirvə görüşündə iştirak etmək üçün Qırğızıstana səfər edib və səfər çərçivəsində Qırğızıstan Prezidenti Əsgər Akayevlə görüşüb. Bu görüş zamanı iki dövlət arasında əlaqələrin inkişafı və mövcud əməkdaşlığın daha da gücləndirilməsi məsələləri müzakirə olunub.

Dahi şəxsiyyət Heydər Əliyevin 1995-ci ildə Qırğızıstanda Türkdilli Ölkələrin Dövlət Başçılarının üçüncü sammitində iştirakı və "Manas" dastanının minilliyinə həsr olunmuş tədbirlərdə çıxışı bu birliyin və əməkdaşlığın əhəmiyyətini bir daha artırıb. "Manas" dastanının minilliyini qeyd etmək tarixi və milli dəyərlərimizi xatırlamaq və bu dəyərlər əsasında qarşılıqlı əlaqələri möhkəmləndirmək üçün böyük imkan idi. Heydər Əliyev çıxışında türk dünyasının birlik və həmrəyliyinin vacibliyini vurğulayıb, problemlərin həllində bir-birimizə kömək etməli olduğumuzu bildirib.

Bu fikirlər xüsusilə, müasir dövrdə türk dövlətləri arasında strateji əməkdaşlığın vacibliyini göstərir və qarşılıqlı münasibətləri daha da möhkəmləndirir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ölkənin həyatında mühüm dönüş nöqtəsi oldu. Onun rəhbərliyi ilə Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi və elmi-mədəni sahələrində mühüm islahatlar həyata keçirildi. Beynəlxalq əlaqələrdə, xüsusilə də Azərbaycan-Türkiyə münasibətlərində yeni bir mərhələ açıldı.

Ümummilli liderin başladığı bu uzaqgörən siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev türk dünyası ilə münasibətləri daha da genişləndirərək, beynəlxalq arenada bu əlaqələrin möhkəmlənməsinə və iqtisadi-mədəni inteqrasiyanın dərinləşməsinə xüsusi diqqət yetirir. Türk xalqlarının birliyini gücləndirmək üçün görülən işlər, TÜRKSOY təşkilatının, həmçinin Naxçıvan Zirvə görüşündə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması bu siyasətin uğurlu nəticələrinin az bir hissəsidir. Bu siyasət Azərbaycanın regionda və dünyada mövqeyinin daha da güclənməsinə əhəmiyyətli töhfə verir.




Türk xalqlarını - Anadolu türkləri, qazaxlar, Azərbaycan türkləri, özbəklər, tatarlar və başqalarını birləşdirən TÜRKSOY təşkilatı yaradılmışdır. 2007-ci ildə Bakıda keçirilən türkdilli xalqların forumunda Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək Qarabağ, Kipr və digər məsələlərin həllində bütün türk xalqları və dövlətlərinin birgə fəaliyyət göstərməsinin vacibliyini vurğulamışdır.

2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşü isə bu münasibətlərin daha da möhkəmlənməsinə yönəlmiş mühüm addım olub. IX Zirvə görüşündə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında sənəd imzalanmışdır. İlk Zirvə görüşü 1992-ci ildə Ankarada, digər toplantılar isə müvafiq olaraq 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdir. Bu görüşlər türk dövlətləri arasında daha sıx əməkdaşlıq və qarşılıqlı dəstəyin təmin edilməsi baxımından əhəmiyyətli rol oynayır. Təşkilat türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin 3 oktyabr tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanan Naxçıvan Sazişinə əsasən, 2012-ci ilin 1 noyabr tarixində təsis edilib və adı "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ)" olub. 2021-ci ildə təşkilatın adına dəyişiklik edilib və hazırda "Türk Dövlətləri Təşkilatı" adı ilə fəaliyyətini davam etdirir.

**Musa BAĞIRLI,**
**"Respublika".**